Uzun illər ərzində Prezident İlham Əliyevin öz ad günündə Qarabağdan məcburi köçkünləri ziyarət etməsi ənənə halını alıb. Hər il dekabrın 24-də dövlət başçısını gözlərində sual, ürəklərində həsrət və kədərlə qarşılayan köçkünlər bu il də Ali Baş Komandanı möhtəşəm qələbə münasibətilə təbrik etmək, ona özlərinin ən səmimi minnətdarlığını, sevgi və məhəbbətini bildirmək üçün gözləyirdilər.

Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm.

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti



Azərbaycana tarixin ən böyük zəfərini qazandıran lider

Bu il dövlət başçısı öz ad gününü tam fərqli bir ictimai-siyasi şəraitdə qarşılayır. O artıq 1 milyon qaçqını və məcburi köçkünü olan ölkənin deyil, Vətən müharibəsində möhtəşəm qələbə qazanmış qalib bir ölkənin Prezidentidir. Buna görə də Prezident, Ali Baş Komandan bulki ad gününü qalib Azərbaycan Ordusunun döyüşçülərinin şərəfinə onun işğaldan azad etdiyi Qarabağda – Zəngilanda, Qubadlıda əsgər və zabitlərimizin əhatəsində qeyd etdi.

Bu görüşlər dövlət başçısının milli təəssübkeşliyindən, doğma torpaqlarını və ata-baba evlərini itirmiş soydaşlarımızın dərdinə şərik çıxmasından xəbər verən alicənab bir addım kimi xalq tərəfindən həmişə yüksək qiymətləndirilib. 30 ilə yaxın müvəqqəti yaşayış yerlərinə sığınmış məcburi köçkünlər artıq bu adı öz üstlərindən götürüblər. Onlar bütövlüyü təmin edilmiş ölkənin azad vətəndaşları, azad edilmiş Qarabağa qayıtmağa hazırlaşan qarabağlılardır. İndi onların Vətəni də, doğma torpaqları da öz əllərindədir.

Hələlik düşmənin özündən sonra qoyub getdiyi ölüm təhlükəsini torpaqlarımızdan təmizləyən və qısa bir zamanda Azərbaycanın siyasi səhnəsində önə çıxarmışdı. 2003-cü ildə prezident səlahiyyətlərinin icrasına başladığı zaman qarşısına qoyduğu ən böyük hədəflərdən biri kimi yeni iş yerlərinin açılması ölkənin ən böyük sosial bəlası olan işsizlik probleminin həll olunmasına şərait yaratdı.

İlham Əliyev prezident seçildikdən dərhal sonra illər ərzində çadır düşərgələrində dözülməz şəraitdə yaşamış qaçqın və köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün onlara yeni yaşayış qəsəbələrinin tikilməsinə başlamışdı. Həmin illərdə işğalçı qüvvələrlə təmas xəttində daimi gərginliyin davam etməsinə baxmayaraq İlham Əliyev regionların sürətli sosial-iqtisadi inkişafını hədəfləyən dövlət proqramları irəli sürdü və onların uğurla həyata keçirilməsini təmin etdi.

Təhsil, səhiyyə, sosial müdafiə sahələrində köklü islahatlar aparıldı. Ölkənin iqtisadi inkişaf templəri dünyanın inkişaf etmiş ölkələrini də ötüb keçdi və Azərbaycan sosial-iqtisadi inkişafın müxtəlif meyarları üzrə dünyada qabaqcıl yerlərə çıxdı. Uğurla aparılan ardıcıl və praqmatik iqtisadi siyasət nəticəsində Azərbaycan Qərb–Şərq və Şimal–Cənub nəqliyyat-logistika dəhlizlərinin kəsişmə mərkəzinə çevrildi. Ölkəmiz Cənubi Qafqazın iqtisadi güc mərkəzinə və beynəlxalq iqtisadi əməkdaşlığın cazibə mərkəzinə çevrildi.

Uğurlu iqtisadi inkişaf nəticəsində əldə olunmuş gəlirlər Prezident İlham Əliyevin daxili siyasətinə uyğun olaraq insan kapitalına çevrildi. Ölkəmizdə müasir dünyəvi dəyərlər sisteminə sahib olan vətəndaş cəmiyyəti yetişdirildi.

Prezident İlham Əliyevin apardığı ardıcıl xarici siyasət nəticəsində ölkəmizin dövlət müstəqilliyi gücləndi, beynəlxalq nüfuzu artdı və Azərbaycan beynəlxalq münasibətlər sistemində öz layiqli yerini tutdu. Azərbaycan həqiqətləri dünya birliyinin ölkəmizə dəyişən münasibətində öz təsdiqini tapdı.

Dövlət başçısı İlham Əliyev ölkəmizdə milli hərbi sənayenin əsasını qoydu və prezident olduğu bütün illər ərzində ölkənin hərbi qüdrətinin davamlı olaraq yüksəldilməsini təmin etdi. Azərbaycan dünyanın kosmik sənaye dövlətləri sırasına qoşuldu. Milli Ordumuz öz peşəkarlığına və hərbi-texniki təchizat səviyyəsinə görə dünyanın ən müasir və güclü orduları səviyyəsinə yüksəldi.

Bu günə qədər həyata keçirilmiş uğurlu sosial-iqtisadi proqramlarla, sahibkarlara dövlət dəstəyinin gücləndirilməsi yolu ilə 2 milyona yaxın yeni iş yerləri yaradıldı. Bu siyasətin ardıcıllığı və dönməzliyi ölkədə yoxsulluq səviyyəsinin azaldılmasına və əhalinin sosial rifah səviyyəsinin yüksəlişinə səbəb oldu. Çala-çuxurlu yolların, sınıq-salxaq körpülərin, divarları ovulub tökülmüş yaşayış binalarının, məktəblərin, xəstəxanaların, təsərrüfat, istehsal və xidmət obyektlərinin abadlaşdırılması, bütövlükdə, yeni ölkə quruculuğuna start verilməsi, ölkənin siməsinin kökündən dəyişilməsi möcüzə təəssüratı yaratsa da bütün bunlar xalqın gözü qarşısında baş verdi.

Bu intibah Azərbaycan dövlətinin və vətəndaşının birgə səyi nəticəsində baş tutdu. Bu intibahın əsasında Azərbaycan liderinin – İlham Əliyevin yaradıcı zəkası, Azərbaycan vətəndaşının isə qurucu əməyi dayandı. Bu gün "dünyaya güneş kimi doğan Azərbaycan" (Heydər Əliyev) məhz Lider – Vətəndaş vəhdətinin nəticəsi oldu. Azərbaycanda xalq və hakimiyyət vəhdətinin yeni, daha məhsuldar epoxası da məhz bu dövrdən başlayır.

Yüksək xarizmaya, rəğbət doğurucu şəxsi keyfiyyətlərə, üç dildə natiqlik məharətinə, əsaslı mövqeyin optimal təzahür maneralarına malik olan İlham Əliyev Azərbaycanın bir ucqar kəndində də, beynəlxalq tədbirlərin keçirildiyi yüksək tribunalarda da eyni səviyyədə yüksək məntiq və inandırıcılıq səriştəsi ilə çıxış edir. Onun çıxışları məntiqli və inandırıcıdır. Çünki onun dediyi sözün arxasında əməli dayanır. Prezidentliyi dövründə İlham Əliyev bir ölkə başçısının öz dövləti və xalqı üçün edə biləcəyindən daha artığını edə bilməyin mümkün olduğunu artıq öz əməlləri ilə sübut etmişdir.

İlk beş illik ilk prezidentlik dövründə ona etimad göstərmiş xalqın gözləntilərini layiqincə doğrultması İlham Əliyevə sonrakı seçkilərdə daha inamlı qələbə qazandırdı. İkinci prezidentlik dövründə İlham Əliyev ulu öndərin siyasi kursuna sadiq qalmaqla bərabər, həm də onu yeni keyfiyyətlərlə zənginləşdirmək, heç kimin proqnozlaşdıra bilmədiyi bir novatorluqla davam etdirmək, müasir dünyanın siyasi mədəniyyətində "öz üslubunu" yaratmaq bacarığını ortaya qoydu. İqtisadi böhranın bütün dünyanı çulğadığı bir zamanda milli dövlətimizin tərəqqiyə qovuşması, ölkə miqyasında bu inkişaf tendensiyanının davamlılığı Azərbaycanı beynəlxalq arenada önəmli bir dövlətə – qlobal siyasətdə söz sahibinə çevirdi. Azərbaycanın orta və uzunmüddətli inkişafının prioritet istiqamətləri və bu strategiyanın uğurlu icra mexanizmləri müəyyən edildi.

Regionların sosial-iqtisadi inkişafına vüsət verən proqramlar, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə, təhsilin, səhiyyənin, əlmin tərəqqisinə hesablanmış fəaliyyət istiqamətləri bir-birini tamamlamaqla ölkəmizdə bir milyondan çox iş yerinin açılmasına və yoxsulluq səviyyəsinin kəskin şəkildə aşağı düşməsinə şərait yaratdı. İnsan amili dövlət siyasətinin ana xəttini təşkil etməyə başladı.

Azərbaycanın son 17 ildə əldə etdiyi iqtisadi uğurlar, dayanıqlı iqtisadi inkişaf onun beynəlxalq arenada yeni model dövlət kimi özünəməxsus yer tutmasına səbəb oldu. Dünyanın aparıcı informasiya vasitələri ölkəmizdə baş tutan bənzərsiz tərəqqi tendensiyasını ən maraqlı detalları ilə önə çəkərək Azərbaycan haqqında ətraflı məlumatlar yaymağa başladı. Azərbaycanın qısa zaman kəsiyində dünyanın sürətlə inkişaf edən ölkələri sırasına daxil olması, ümumdaxili məhsulun, sənaye istehsalının dəfələrlə artımı, enerji gəlirlərinin ölkənin çoxşaxəli inkişafına yönəldilməsi, insan kapitalının dövlətin prioritet siyasət xəttinə çevrilməsi Azərbaycanı yeni tipli dövlət kimi bütün dünyaya tanıtdı.

Bu dövrdə Azərbaycanın xarici siyasət sahəsində qazandığı uğurlar onu beynəlxalq siyasi sistemin ən fəal subyektlərindən birinə çevirdi. Azərbaycan özünün və daxil olduğu regionun təhlükəsizlik maraqlarını qoruya bilmək, cürbəcür təhdid və avantürala-rı zərərsizləşdirmək bacarığını nümayiş etdirdi və nəticədə dünya birliyində etibarlı tərəfdaş nüfuzu qazanmış Azərbaycan 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının üzvü seçilərək dünyanın idarə olunmasında bilavasitə iştirak edən bir dövlətə çevrildi. Azərbaycan Qoşulmama Hərəkatının fəal üzvü və 2 ildir ki sədridir.

Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində həyata keçirilən ardıcıl tədbirlər bütün bu müddətdə Prezident İlham Əliyevin siyasətinin prioritet istiqamətini təşkil etdi. Avropa Şurası, Avropa Parlamenti kimi mötəbər təşkilatlar tərəfindən Ermənistanın təcavüzkar dövlət kimi tanınması, bir çox dövlətlər tərəfindən Xocalı faciəsinin soyqırım faktı kimi qəbul edilməsi Azərbaycanın beynəlxalq hüquq prinsiplərinə əsaslanan haqlı mövqeyini bir daha təsdiq etmiş oldu. Azərbaycanın bu illər ərzində öz ədalətli mövqeyindən bir addım belə geri çəkilməməsi, Ermənistanın bu problem üzərindən spekulyasiya manevrlərinin sıfıra endirilməsi, böyük iddialarının girovuna çevrilmiş işğalçı-separatçı rejimin beynəlxalq miqyasda küncə sıxışdırılması xarici siyasətimizin qələbəsi oldu.

Ümummilli lider Heydər Əliyevin açdığı yolla ötən illərdə Azərbaycan dünya birliyinin ən nüfuzlu və etibarlı üzvlərindən birinə çevrilib. Azərbaycan son illər ərzində beynəlxalq aləmdə öz mövqelərini önəmli dərəcədə gücləndirə bilib. Xarici siyasətdə Azərbaycanın əldə etdiyi bu uğurlar Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan davamlı və məqsədyönlü siyasətin nəticəsidir. Bir sıra beynəlxalq və rejional qurumlarla sıx əməkdaşlıq edən ölkəmizin xarici aləmdə mövqeyinin möhkəmlənməsi onun Qoşulmama Hərəkatının üzvü kimi fəal mövqeyi ilə bağlıdır. Qoşulmama Hərəkatı dünyanın ən geniş tərkibli beynəlxalq təşkilatlarından biridir və Azərbaycan da və indiki halda həmin təşkilatın sədridir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın xarici siyasət istiqamətində nailiyyətlərinin digər istiqaməti isə müsəlman ölkələri ilə əlaqələrində böyük irəliləyişlərin əldə olunmasıdır. Ölkəmiz bütün müsəlman dünyasında böyük nüfuza malikdir. Bu da onunla əlaqədardır ki, Azərbaycan müsəlman dünyasının birliyinə və həmrəyliyinə mühüm töhfə verir. Təsadüfi deyil ki, 2017-ci il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunub, eyni zamanda, ölkəmiz İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi edib. Eləbəttə, Azərbaycanın gördüyü bu işlər İslam dünyasında yüksək qiymətləndirilir".

Prezident İlham Əliyev 2018-ci ilin prezident seçkiləri zamanı sosial-iqtisadi islahatlarla yanaşı, siyasi islahatların da aparılmasının vacibliyini qeyd etmişdi və seçkilərdən sonra dövlət quruculuğu sahəsində demokratik proseslərin dərinləşməsi ilə bağlı ciddi addımlar atdı. Həmin seçkilərdən sonra ölkəmizin həyatında baş verənlər ölkə başçısı tərəfindən aparılan siyasətin düşünülmüş və dəqiq nəticəyə hesablanmış layihələrə əsaslandığını və bu proseslərin hər bir vətəndaşın şəxsi həyatında öz müsbət təzahürünü tapdığını göstərir.

İqtisadi-sosial sahədə daha öncədən başladılmış geniş miqyaslı islahatlar seçkilərdən keçən 2 il ərzində bir sıra hökumət qurumlarının – nazirliklərin və komitələrin fəaliyyətində əsaslı dönüş yaratdı. Yüz minlərlə mövcud iş yerlərinin leqallaşdırılması və eyni zamanda yüz minlərlə yeni iş yerlərlərinin yaradılması dövlət büdcəsinə daxil olan vəsaitlərin həcmini əhəmiyyətli dərəcədə artırdı. Nəticə isə gözlənildiyi kimi xalqın mənafeyinə xidmət etdi: minimum əmək haqqı artırıldı, pensiyaların və əztəminatlı ailələrə göstərilən sosial yardımın həcmi artırıldı, bütün ölkə ərazisində icbari tibbi sığortaya keçid baş tutdu. Kənd təsərrüfatının, yol-nəqliyyat infrastrukturunun, dövlət xidmətləri sektorunun genişləndirilməsi və müasirləşdirilməsi əhalinin rifah səviyyəsinin yüksəlməsinə səbəb oldu.

Builki parlament seçkiləri siyasi islahatların yeni mərhələsinə başlanğıc verdi. Ölkənin müxtəlif siyasi fikir cərəyanlarını təmsil edən çoxsaylı namizədlərin böyük həvəslə iştirak etdiyi parlament seçkiləri indiyədək görünməmiş siyasi fəallıq şəraitində keçdi. Seçkilərin nəticələrinin təsdiq olunması prosesi də yeni metodologiyaların tətbiqi ilə yadda qaldı. Səsvermə və səslərin sayılması proseslərində seçki qanunlarının pozulması iddia olunan dəlillərin nəticələri ləğv olundu və bələ-ləklə, nəticəsi şübhə doğuran seçki dairələrində vətəndaşlara təkrar seçkilərdə iştirak edərək öz iradələrini tam azad və demokratik şəraitdə yenidən ifadə etmək üçün fürsət yaradıldı.

Parlamentin yeni tərkibi əvvəlki illərdən fərqli bir reallığı ortaya çıxardı. Müstəqilliyimizin ilk illərindən başlayaraq formalaşmaqda və təkmilləşməkdə olan pluralist cəmiyyətin bütün siyasi palitrası öz əksini yeni parlamentdə tapdı. Belə bir parlamentin köhnə qaydalarla fəaliyyət göstərməsi artıq mümkün deyildi. Parlamentdə təmsil olunan bütün siyasi qüvvələr arasında aparılan dialoq parlament idarəçiliyində yeni konfiqurasiyanın meydana çıxması ilə nəticələndi. Hakim partiyanın təmsilçiləri ilə yanaşı müxalifət və müstəqillər bloklarını təmsil edən deputatlar da parlament komitələrinin idarə olunmasında və eləcə də Milli Məclisin rəhbərliyində yer aldılar.

Vətəndaşların mütləq əksəriyyəti ölkə başçısının siyasi dialoq təşəbbüsünü dəstəkləyir və bütün siyasi qüvvələrin milli maraqlar naminə müvafiq addımlar atılmasını alqışlayır. Bu dialoqun nəticəsi xalqımızın ən ağrılı problemi olan Qarabağ münaqişəsinin müharibə yolu ilə həlli üçün zəruru milli birliyi təmin etdi.

İslahatlar bu gün də uğurla davam etdirilir. Parlament seçkilərindən sonra ölkə rəhbərinin təşəbbüsü ilə başlanan geniş siyasi dialoq mühiti cəmiyyət daxilində qarşılıqlı etimadın gücləndməsinə xidmət etməklə bərabər, həm də müxalifət və iqtidar qüvvələri arasında münasibətlərin qarşıdurma rejimindən əməkdaşlıq platformasına keçməsinə bir çağırışdır. Qərəzli qarşıdurmanın heç bir halda və cəmiyyətin heç bir təbəqəsinə fayda gətirməyəcəyini başa düşən siyasi qüvvələr bu çağırışa cavab olaraq ölkəmizin milli maraqlarına xidmətə kökləmişy əməkdaşlığa qoşulduar.

Bu gün bütün dünya pandemiyaya qarşı gərgin mübarizə şəraitində yaşayaraq post-pandemiya dövrünün çağırışlarına hazırlaşmaqdadır. Bütün ölkələr üçün gözlənilməz olan qlobal pandemiyanın ilk günlərindən başlayaraq Prezident İlham Əliyevin sərəncamları ilə atılan ardıcıl addımlar cəmiyyətimizin bu sınaqdan da az itkilərlə çıxmasına zəmin yaradır. Fors-major şəraiti həm də hökümətin bütün qurumlarının fövqəladə rejim vəziyyətində səmərəli fəaliyyət göstərə bildiyini və qarşımıza çıxa biləcək bütün maneələri birlikdə uğurla dəf etməyə qadir olduğumuzu göstərdi.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın çağırışı ilə cəmiyyətimizdə indiyədək görünməmiş səfərbərlik ruhu yarandı və on minlərlə insan social cəhətdən zəif əhalinin müdafiəsi üçün könüllü fəaliyyətə keçdi. Ölkənin hər yerində insanlar arasında qarşılıqlı yardımlaşma, mərhəmət və maddi-mənəvi dəstək abı-havası hökm sürdü, yüz minlərlə vətəndaşa, on minlərlə sahibkara dövlət yardımı göstərildi. Vətəndaşlar bir daha dövlətimiz tərəfindən insan həyatına yüksək dəyər verilməsinin şahidi oldu.

Respublikalarının regional və qlobal siyasi arenada güclənməsi və onların arasındakı müttəfiqliyin ümumtürk və region dövlətləri üçün örnəyə çevrilməsi türk dünyasının bütünləşmə prosesinə ideya stimulu verməkdədir. Türkiyə və Azərbaycanın səsinə digər qardaş türk respublikalarından səs verildikcə, dünya türk dövlətlərinin birliyi öz sarsılmaz mövqeyini daha əsaslı şəkildə nümayiş etdirə biləcəkdir.

Bizim gücümüz birliyimizdədir. Azərbaycan müstəqil ölkə kimi yaşamağa başlayandan sonra biz hər zaman Türkiyənin dəstəyini hiss etmişik və ümummilli liderimiz Heydər Əliyevin həmişə kəlamını yadda saxlayırıq: "Biz bir millət, iki dövlətik. Türkiyə harada, Azərbaycan orada, Azərbaycan harada, Türkiyə orada olmalıdır. Əminəm ki, bundan sonra da belə olacaqdır".

Son illərdə Azərbaycanın haqlı mövqeyini dəstəkləyən və təcavüzkarı buxovlayacaq yeganə güc mərkəzi, məhz Azərbaycan Ordusu və Azərbaycan Prezidentinin erməni işğalına qarşı güzəştsiz mövqeyi idi. Azərbaycan xalqının yeganə ümid yeri ölkə başçısının bütün işğal olunmuş ərazilərimizin azad olunması üçün dəfələrlə bəyan etdiyi siyasi iradəsi və qətiyyəti idi. Odur ki, Azərbaycan əsgəri möhtəşəm həmlələri, sarsıdıcı zərbələri ilə işğalçı ordunu səngərlərini qoyub qaçmağa məcbur etdi.

12-16 iyul Tovuz hadisələrindən dərhal sonra Türkiyə–Azərbaycan birgə hərbi təlimlərinin başlanması, Türkiyə dövlətinin yüksək səviyyəli siyasi-hərbi rəhbərlərinin ibarət nümayəndə heyətinin Vətən müharibəsi zamanı ölkəmizə gəlişləri və Qarabağ münaqişəsinin həlli istiqamətində Türkiyənin istənilən addımı atmağa hazır olduğunun bəyan edilməsi Azərbaycan xarici siyasətinə güc verdi, onun daha kəskin olmasını təmin etdi. İşğal olunmuş bütün torpaqlarımız Azərbaycan və Türkiyə arasındakı möhtəşəm türk birliyinin birgə iradəsi ilə düşməndən təmizləndi.

Bu yolda bütün Azərbaycan xalqı Azərbaycan Prezidenti ətrafında monolit ümumxalq birliyi nümayiş etdirdi. Hər bir Azərbaycan vətəndaşı işğal olunmuş torpaqlarımızın azad olunması və düşmən təcavüzündən müdafiə olunması üçün müqəddəs savaşa canı və qanı ilə hazır oldu. Bu müqəddəs savaşda Vətən torpaqlarının azad olunması yolunda canından keçmiş igid əsgərlərimiz bu günün və gələcəyin əbədi qəhrəmanlarıdır. Onlar torpağımızın hər qarışı üçün canlarından keçməyə hər an hazır olduqlarını öz şücaətləri ilə göstərdilər və ölməziyə qovuşdular.

Nəhayət, 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu dünya hərb elminin səhifələrinə qızıl hərflərlə yazılan yüksək döyüş qabiliyyəti və ən müasir hərb taktikası və strategiyası nümayiş etdirdi. Şanlı ordumuz bir milyondan çox qaçqın və köçkünlərin doğma torpaqlarını işğaldan azad etdi, uzun illər ərzində sonu görünməyən bir münaqişə ocağında sülh yaratdı və hazırda da qaçqınların tezliklə öz evlərinə qayıtması üçün lazım olan bütün addımları atmaqdadır.

Qaçqın və köçkün problemi qlobal problemdir. Dünyanın müxtəlif bölgələrində daimi yaşayış yerlərindən və öz ev-eşiyindən məhrum olmuş on milyonlarla qaçqın və köçkünlər var. Dünya birliyi nə qədər onların problemini həll etməyə çalışsa da bu say azalmır, əksinə hər il bir qədər də artır. Azərbaycan Prezidenti isə dünyada heç bir dövlət başçısının edə bilmədiyi və yeqin ki, yaxın gələcəkdə də edə bilməyəcəyi bir qəhrəmanlığı etdi – bir milyondan çox qaçqın və məcburi köçkünün xəyallarını gerçəkliyə çevirdi. Prezident İlham Əliyev dünyanın ən böyük problemlərindən birinin həllinə əvəzsiz bir töhfə verdi. Dünyadakı çoxmilyonlu qaçqın ordusunun sayı bir milyon azaldı.

Milyonlarla insanın həyatını dəyişərək yaşanan ömrün hər ili bəşəriyyətə verilən töhfə, insanlığa göstərilən misilsiz xidmətdir. Belə möhtəşəm qələbələrlə və insanlığa verilən belə böyük töhfələrlə yaşanan ömür ən böyük alqışa və ən uca şöhrətə layiqdir.

Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin şərəfli ömür kitabının yeni, 60-cı səhifəsi açılır. Bu ömür kitabının açılacaq bütün səhifələrinə möhkəm can sağlığı və xoşbəxtlik, davamlı uğurlar və qələbələr yazılmasını arzulayıram. Yaşasın Azərbaycan Prezidenti! Bu, bütün Azərbaycan xalqının öz Prezidentinə ən səmimi arzulandır.

Cavanşir FEYZİYEV
Milli Məclisin deputatı
fəlsəfə doktoru